Daşlar "tilsimini" qırmışam fəqət,
Salamat dönmüşəm səfərdən yenə.
Çox zaman özüm də etmişəm heyrət
Neçün toxunmayıb bir zaval mənə?!

Neçün dəf etmişəm azar-bezarı?
Görünür, o sular dadıma çatıb.
Daşı yadlar atıb...
Axı, suları
Anamın əlləri, gözləri atıb!..

1978-1979

Səndən uzaqda

1. HƏSRƏT

Səndən uzaq düşdüyüm gün
Ən dəhşətli bir gün idi.
Şadlıq, sevinc, nəşə – bütün
Ürəyimdən sürgün idi.

Tapdadıqca ayaqlarım
Avropanın sinəsini,
Söyləyirdi dodaqlarım
Acı həsrət nəğməsini.

Bu həsrətin yolu uzun,
Bu həsrətin yaşı azdı,
Hansı ürək yurdumuzun
Həsrətiylə tutulmazdı?!

Saçlarıma dən düşsə də
Oldum ana uşağı mən.
Göz cənnətlə görüşsə də,
Andım doğma torpağı mən.

Vətənindən aralanmış
İnsanları yada saldım.
Ürəyimdə boranlı qış
Sanki matəm marşı çaldı.

Bir görümlük çiçək gəzdim –
Olsun Muğan çiçəyi o,
Bir udumluq külək gəzdim –
Olsun Bakı küləyi o.

İnsan gəzdim, bir zamanlar
Ürəyimi qırmış olsun.
Sözü zəhər, özü idbar,
Məni söymüş, vurmuş olsun. –

Bizim elli olsun fəqət,
Ya Şəkidən, ya Şirvandan.
Bizim dilli olsun fəqət...
Qürbət məni sıxdı, aman!

2. ƏCNƏBİ

Səndən uzağa düşdüm,
Ağır günüm oldu bu səhər mənm.
Qərib torpağa düşdüm,
Adıma əcnəbi dedilər mənim.

Əcnəbi!
Bakının küçələrində
Bu sözü nə qədər söyləmişəm mən.
Yad dilli, geyimli adam görəndə
Buz kimi bu kəlmə çıxıb dilimdən.

Göydə təyyarədə, yerdə Hotel-də
Mənim özümə də dedilər bunu.
İlk dəfə gəzdiyim o qürbət eldə
Duydum bu kəlmənin nə olduğunu.

Əcnəbi!
Nə haqqım, nə ixtiyarım,
Nə dostum, yoldaşım vardır bu yerdə.
Yanımdan sovuşan bu insanların
Bəlkə mən görmədim üzünü bir də.

Onlar heç bilmir ki, yer kürəsində
Mən də ömr edirəm, adım-sanım var,
Dünyanın min rəngli xəritəsində
Öz yurdum, öz elim, öz məkanım var.

Şəhərə çıxıram, yola çıxıram,
Üzümdən oxunur əcnəbiliyim.
Çəkinib özümü elə sıxıram
Deyərlər bir cibə girmişəm yəqin.

Gözümdə gülüş yox, üzümdə həvəs,
Günəş şölələnir, isindrir də.
Naqafil bir nida, naqafil bir səs
Məni uşaq kimi diksindirir də.

Möhürə çevrilib əcnəbi sözü
Elə bil üzümə basılıb mənim.
Dövrəmdə insanlar gəzsə də düzü
Alnıma tənhalıq yazılıb mənim.

Əcnəbi! Yerlilər hər çağıranda
Keçir ürəyimdən qüssə, qəm, qubar,
Bax, bu insanlarla mənim aramda
Gözlə görünməyən sərhəd xətti var.

Bir gün gedəcəyik bəlkə Marsa biz,
Anamız torpaqdan ayrılacağıq.
Orda insan oğlu əgər varsa,
biz
Yenəmi əcnəbi çağrılacağıq?

Hər səhər üfüqdən günəş doğanda
Hamıyçün söndürür ayı, ulduzu,
Fəqət bu torpaqda, fəqət bu yerdə
İnsanlar ayrılır, əcnəbiləşir!

Səndən uzağa düşdüm,
Ağır günüm oldu bu səhər mənim.
Qərib torpağa düşdüm,
Adıma əcnəbi dedilər mənim...

3. DUZ-ÇÖRƏK

Səndən uzaqda
Qərib torpaqda
Həsrət qaldım mənə əziz,
Dadlı-dadlı, ləziz-ləziz
Bircə qaşıq xörəyinə,
Bir doyumluq çörəyinə,
Nə göründü sənin yerin!
Hanı dolu süfrələrin?
Sən verdiyin qonaqlıqlar
Gəzir dildə şüar-şüar.
Qonaq nədir, xərclədi nə?
Sən qoymadın öz cibinə
Əl salmağa bir qonağı.
Aşı, südü, balı, yağı
Düzdün onun qabağına.
Belə baxdın qonağına.
Anlayarsan indi məni –
Hər loxmanı, hər tikəni
Yad ölkədə, deməli, sən
Öz puluna yeməlisən.
Tök ortaya pullarını:
Dinarını, dollarını
Əsirgəmə, yığ araya.
Üç qəpiklik cığaraya
Ver bir günlük yeməyini.
Yaylığını, köynəyini
Sən yudurtsan bir qarıya,
Demək, getdi pul yarıya.
Ütü çəksə şalvarına,
Demək, qaldın acqarına.
Dilin kəsmə düz deyənin,
Arıqlamaq istəyənin
Əsl yeri, bax, buradır.
Demə, bunlar macəradır.
Demə, bunlar rəvayətdir –

Yaşadığım həqiqətdir.
Yad ölkəyə gedib sən də,
Bax, bunlara rast gələndə,
Qorxma, öyrəş bu dəbə sən...
Axı, burda əcnəbisən.

4. NAR ƏTRİ

Elə bildim bu gün səndən uzaqda
Kədər-qüssə alar mənim canımı.
Bir özümdüm, bir xəyalın otaqda,
Açıb tökdüm yerə çamadanımı.
Yaddan çıxmış bir nar dəydi gözümə
Alıb kəsdim, ətri doldu otağa.

Elə bildim qüvvət gəldi dizimə,
Mən qayıtdım sanki doğma torpağa.
Elə bil ki, Göyçay idi bu yerlər,
Qaraməryəm gözlərimə göründü.
Narın ətri əsla olmaz deyirlər,
Yox, otağım nar ətrinə büründü.

Nə əsasla söyləyiblər bunu bos
Guya olmur...
Guya olmur nar ətri.
Gülöyşəni yad ölkədə apar kəs,
Görəcəksən...
Görəcəksən var ətri.

5. MÜHACİR

Vədə çatdı,
Demək yenə
Qayıdıram mən Vətənə!
Kim saxlayar burda məni?!

Çəkir doğma yurda məni
Öz torpağım, məmləkətim,
Beş-on günlük bu həsrətim...
Verməsələr maşın, qatar,
Təyyarələr uçmasalar,
Lap sürünə-sürünə mən
Qayıdaram yad ölkədən.
Fəqət...
Fəqət onun üçün
Bağlanıbdır yollar bütün.
Baxır mənə sözlü kimi,
Baxır milyongözlü kimi
Tanış bir şey görsün deyə.
Ürəyini yeyə-yeyə
Baxır mənim paltarıma,
Əyilməyən vüqarıma.
Möcüzəyəm, yoxsa nəyəm –
Mən yurdluyam, vətənliyəm!
O, mühacir...
O, qaçaqdır...
Bu sayaq da qalacaqdır.
Bir tikəyə, yağlı paya
Gəldi bir vaxt Avropaya.
O, cənnətə düşüb sandı,
Nə itirdi, nə qazandı? –
Bir mühacir damğasına
Qürur sına, vüqar sına,
Ümid itə, vətən itə.
Dönə canlı bir meyitə!..
İndi baxır mənə sarı,
Nələr demir baxışları!
O istəyir yaxınlaşa,
Ayaqları dönür daşa.
O bilir ki, mənə yaddır,
Gözündəki bu imdadlar:
"Mən bir toza dönəydim kaş.

Qayıdaydım o diyara,
Doğulduğum torpaqlara..."
Deyə bilmir, dili laldır.
Sən Anteyi yerdən qaldır,
Ayağını torpaqdan üz,
Bir yarpağı budaqdan üz –
Yaşayarmı?
Ölər hökmən,
Qayıdıram vətənə mən.
Osa burda qalacaqdır,
Mühacirtək öləcəkdir.
Vətənədir mənim yolum.
Qanadına qurban olum,
"Tu", başa düş həsrətimi,
Bir az artır sürətini.

Oktyabr – noyabr 1976
Orta Avropa

BRİTANİYA DƏFTƏRİ

ROBERT BERNSİN EVİNDƏ

Taleyinə bir möcüzə düşüb hər kəsin,
Dolaşıram mən evində Robert Bernsin.
Bu bir evmi, ya tövləmi – söyləmək çətin,
Şotlandiya, bu daxmada güldü şöhrətin.
Robert Berns bu daxmada açdı gözünü,
Beşikdə yox, ehtiyacda gördü özünü.
Kiçik daxma sanki ömrü sıxmaq üçündür,
Ovuc boyda bir pəncərə baxmaq üçündür
Bu dünyanın gərdişinə, Aya, Günəşə.
Hər nə gördü – ovuc boyda gördü həmişə.
Çörəyi də ovuc boyda oldu Bernsin,
Səadəti ovuc boyda – soldu Bernsin.

Hər nə gördü ovuc boyda...
Bircə qəm, kədər
Dağlar qədər, düzlər qədər, asiman qədər.
Otuz yeddi il yaşadı Berns yarıac,
Hər ilin də yarpağında bir söz: ehtiyac.
Ehtiyacı ovcuna o, yığdı zər kimi,
Pul görmədi ovcu bütün şairlər kimi.

Dolaşıram mən evində Robert Bernsin,
Taleyinə bir möcüzə düşüb hər kəsin.
Əllərimdə şotland funtu, üstündə şəkil,
Pulun üstə Robert Berns! Möcüzə deyil!
Britaniya ellərini dolan sərasər,
Nə istəsən, bu Bernsli pula verərlər.
Dükan, bazar – hara getsən götürmə açar,
Bu pul üçün qapısını lordlar da açar.
O evlər ki, qəsrlər ki, o qapılar ki,
Açılmazdı qarşısında şair Bernsin, –
İndi kral, keşiş, nazir az tapılar ki,
Bu Bernsli yaşıl funta fikir verməsin.
Əlimdə də funt sterlinq – bu yaşıl kağız,
Dodaqaltı bu sözləri deyirəm yalnız:
Sən tövlədən seçilməyən, balaca daxma,
Belə miskin görkəminə kədərlə baxma.
Sən alisən min-min kral imarətindən.
Mən də gəldim Azərbaycan məmləkətindən.
Mən başımı hüzuruna əyməyə gəldim,
Mən Bernsin öz dilində deməyə gəldim,
Azərbaycan kəlmələri dinir mehriban,
Baxır mənim dodağıma Berns pərişan,
Onun şeri dinir burda mənim dilimdə! –
Mümkünmüdür şair ruhu qalxıb görməsin?
Elə bil ki, dil açacaq indi əlimdə
Yaşıl funtun üstündəki şəkli Bernsin.

SÜPÜRGƏÇİLƏR

Edenburq – Avropada
Ən gözəl, təmiz şəhər.
Fəqət yollar, döngələr
Bu gün çirkli görünür.
Hərdən əsdikcə külək
Sərxoş dilənçilərtək
Xəzəllər, qırıntılar
Səkilərdə sürünür.

Bir aydır zibilçilər,
Bütün süpürgəçilər
İşləmir, tətildədir.
Edenburqda bununçün
Küçələr zibildədir,
Səkilər zibildədir.
Süpürgəçi qardaşlar,
Sizə iki sözüm var: –
Bu tətili qurtarın,
Bəsdir, küyə getməyin,
Qoy fəhlə tətil etsin,
Məmur da tətil etsin,
Çörəkçi tətil etsin,
Tək siz tətil etməyin!

Onsuz da zibil basıb
Dünyanın çox yerini –
İclas salonlarını,
Millət məclislərini.
Onsuz da zir-zibillə
Doludur arsenallar,
Oyuncaqtək oynadır
Atomu, neytronu
Qocalmış generallar.

Qartımış hökmdarlar
Ərzi zibilləyibdir,
Neçə işıqlı beyni,
Düşüncəni, duyğunu
Gözü zibilləyibdir.

Nəğmələr saxta notla,
Kitablar saxta sözlə,
Üzlər saxta maskayla,
Maskalar saxta üzlə
Zibillənib,
Amandır.
Tətili dayandarın!
Yığın bu zir-zibili,
Bir tərəfdə yandırın.
İstəsəniz dəmirdən
Süpürgələr düzəldin,
Dünyamız zir-zibildən
Təmizlənsə gözəldir!
Dayandırın tətili,
Alın süpürgələri,
Başlayın işinizə.
Bu yolda bir köməkçi
Gərək olarsa sizə, –
Mənə süpürgə verin,
Məni süpürgəçitək
Götürün dəstənizə!

SUSMAQ AZADLIĞI

Nottingemin izdihamlı yerində,
Əllərində mikrofonlar, vərəqlər –
Hüzurunda polisin də, merin də
Şüar deyir, nitq eləyir beş nəfər.

Mikrofonu bir-birinə ötürür,
Beşinin də köpüklənir ağızı.
Biri qoyur, o birisi götürür
Hüquqların yazıldığı kağızı.

Kağız bəyaz sinəsinə nəqş edib:
Azad vicdan, azad dilək, azad söz.
Gör insana kağız nələr bəxş edib:
Azad əmək, azad ürək, azad göz.

Göy üzündə ulduzların sanı var,
Yer üzündə azadlığın sanı yox.
Sözlərdi də, qucaq-qucaq al, apar,
İstisi yox, soyuğu yox, canı yox.

Beş nəfərin nitqi yenə kəsilmir,
Səslərindən sanki dünya oyanar.
Polis keçir – qabırğalar əzilmir,
Polis keçir – əl atılmır naqana.

Biri coşub söz yağdırır küçədə
Kallagenin ünvanına nə qədər.
Biri deyir: bir bezdəndir üçü də: –
Leyboristlər, liberallar, köhnələr*.

Sanıram ki, indi odlu silahlar
Beş nəfəri qanqal kimi biçərlər.
Heç məsitmir polisi də "günahlar",
Yanlarından etinasız keçirlər.

Yaman dərddir görünməyə varlığın
Söz deyəsən – bir eşidən olmaya.
Daş qalağı sanılasan bir yığın,
Kimsə səni vecinə də almaya.

Etina da etməyələr sözünə,
Saymazyana ötüşələr yanından.
Dediyinin əyrisinə, düzünə
Tüpürmək də istəməyə bir insan.

Cəzaların ən böyüyü, ağırı –
Laqeydlik, etinasız baxışlar.
"Onun elə hüququ var – bağırır,
Mən baxmıram – bu hüquq da mənim var".

* Mühafizəkarlara işarədir.

Cansız valdır o beş nəfər elə bil,
Patefonun üzərində fırlanır.
Kar yaranıb bütün şəhər elə bil,
Qulaq asmır, etinasız dolanır.

O val deyil, yer şarıdır bəlkə də,
Fırlandıqca eşidilir naləsi.
Hökmdarlar neçə-neçə ölkədə
Etinasız qarşılayır bu səsi.

Hökmdarlar, qulaq asın, amandır,
Fəryadına insanın siz, yerin siz.
Danışdırıb dinləməmək yamandır,
Barı susmaq azadlığı verin siz.

...Nottingemin izdihamlı yerində,
Əllərində mikrofonlar, vərəqlər –
Hüzurunda polisin də, merin də
Şüar deyir, nitq eləyir beş nəfər...

BRİTANİYA MUZEYİNDƏ

Ürəkdən sevirəm muzeyləri mən,
Orda tarixi var xalqın, millətin,
Odur xəbər verən əzəliyyətdən,
Odur aynası da əbədiyyətin.

Baxdım Britaniya muzeylərinə,
Dünyaya bəllidir adı, şöhrəti.
Sanırdım gələcək gözüm önünə
İngilis xalqının milli sərvəti.

Sanırdım ingilis-saksonların da
Öz sözü, öz səsi var bu muzeydə.
Bir vaxt "adam yeyən qoyunların da"
Qəmli tarixçəsi var bu muzeydə.

Mən elə bilirdim...
Heyhat!
Elə bil
Bura ya Misirdir, ya Yunanıstan.
Elə bil ingilis torpağı deyil,
Bura ya İrandır, ya da Hindistan!

Göylərə baş vurur muzeyin tağı,
Altında Parfenon – sütunlu məbəd.
Onu görmək üçün
yunan torpağı
Baxır uzaqlardan gözündə həsrət.

Arabir Londona gəlir yunanlar,
Qədim Parfenonu görsünlər deyə.
Heyrət!
Bilet alıb baxırlar onlar
Özləri yaradan bu abidəyə.

Burdadır Ramsesin heykəli, burda.
Onun mavzoleyi bu muzeydədir.
Bir vaxt hökm etdiyi o qədim yurda
Həsrətdir:
Misri də burdan seyr edir.

Baxıram mumyalı cənazələrə,
Bura gətirilib Nil sahilindən.
Ah, bələdçi ledi, çox nahaq yerə
Başqa cür yozursan bu mənanı sən.

Deyirsən bunları gətirməsəydik
Hərəsi bir yanda itib-batardı.
Deyirsən bunlarçün biz xərc də çəkdik,
Hərəsi dollardı, funtdu, dinardı.

Dayan, hansı xalqdır bunları satan,
Pula dəyişdirən öz şöhrətini?
Varsa, o xalq deyil, sürüdür, inan,
Tərk etsin o, insan cəmiyyətini!

Yox, bunlar qarətdir, həqiqi qarət!
Hər şeyi çağıraq öz adıyla biz.
Alınmaz, satılmaz mənəvi sərvət,
Söylə, Taueri satar ingilis?

Hər mumya xalq üçün canlı bir aləm,
Odur tarixi də, öz varlığı da.
Pambıq da, taxıl da, neft də cəhənnəm,
Qarət edibsiniz məzarlığı da!

Burdadır nə qədər şerin, dastanın
Nadir yazısı da, ilk nüsxəsi də.
Burdadır vətənim Azərbaycanın
Üç min il əvvəlki xəritəsi də.

Bütün ölkələrdən qarət, qənimət
Muzeyi bəzəyən saysız yığında.
İngiltərə özü, bu xalq, məmləkət
Yox olub qarətlər dumanlığında.

Mən getdim Temzanın sahilindəki
Krallar yuvası Tauerə də,
Bura gətirilib, qədim Çindəki
Ən nadir, miniatür bir mənzərə də.

Beş yüz on karatlıq nəhəng brilyant –
Neçə şah tacının dəyəri – burda.
Daş-qaşdan hörülmüş nadir qrilyand –
O qiymət, gözəllik əsəri – burda.

İki yüz nəfərlik qab dəsinə bax,
Nimçə-boşqab qızıl, çəngəl-bıçaq zər.
Onların səmtinə tuşlanıb ancaq
Telekameralar, odlu lülələr.

Polad qapıların, qalın divarın
Dalında bu sayaq qorunur onlar.
Neçə məmləkətin, elin, diyarın
Burda sərvəti var, burda varı var.

Çətindir parolsuz girəsən bura,
Soldat qarğalar da müdam oyaqdır.
Bir nəfər yanaşsa qalın divara
Qarğalar hay salıb çığrışacaqdır...

... Zəngin muzeyləri gəzirəm bu gün,
Qovur bir-birini anlar, saatlar!
Mənə elə gəlir öz vətəniyçün
Darıxır bu gəlmə eksponatlar.

STRATFORDDA

...Dedilər gedirsən İngiltərəyə,
Gözümün önündə bu zaman mənim
Nə Temza, nə başı kəsilən kral,
Nə qədim Tauer, nə duman, çisək,
Nə Şerlok Holmsun macəraları,
Nə də ki, lordların məclisi durdu.

Gözümün önündə bu zaman mənim
Birinci Şekspir, sonra "Qlobus",
Bir də müəllimim Əli Sultanlı –
Mərhum professor gəlib dayandı.

...Qəflətən kəsərdi mühaziрəni,
Üzünü tutardı bir tələbəyə,
Deyərdi:
– Mənə bax, qız, mənə bax sən,
Gözündə bir şüşə soyuqluğu var.
Axı Şekspirdən danışıram mən,
Onu ehtirassız dinləmək olmaz.
Söhbət Şekspirdən düşübsə əgər
Gözün ehtirasla alışmalıdır.

...Onun vətəninə gəlmişəm bu gün,
mən qibtə edirəm özüm-özümə.
Stratford,
nə qədər balacasan sən,

Sənə şəhər demək çətındır düzü,
Bəlkə də düşməzdin xatirələrə
Ərzə Şekspiri bəxş etməsəydin.
Bir-iki küçən var, beş-on dalanın,
Bu da Şekspirin doğulduğu ev.
Hələ bir dahinin eşitmədim mən
Zəngin saraylarda doğulduğunu.

... Atası yun alıb ip əyirərmiş,
Əlcəkmiş, corabmış toxuduğu da.
Sanki ehtiyacda dərd çəkmək üçün
Gəlir yer üzünə bütün şairlər.
Neçə yol alınıb-satılıb bu ev,
Əldən-ələ keçib əzik pul kimi,
Hələ bu beşiyin boyuna bir bax,
Demə, yerləşibmiş ona yer şarı!

... Sən də, tut ağacı,
Qurumuş ağac,
Demək Şekspirin yaşıdısan sən?!
Yoqin mənim kimi hələ neçəsi
Sıxıb dodağını quru gövdənə.
Sən dəmir qılafa salınmısan ki,
Vüqarla durasan, yıxılmayasan.
O səni görübdür,
Tutundan yeyib –
Bu sevinc yükünü çəkmək asanmı?
Dəmir dirəklərin, dəmir qılafın
Onun şöhrətinə çatarmı ömrü?
Meşələr quruyub odunlaşacaq,
Dağlar əriyəcək, düzlənəcəkdir,
Yenə yaşayacaq onun şöhrəti
Ay kimi, gün kimi, ulduzlar kimi.

... Özüdür, arvadı, qızı, yeznəsi
"Müqəddəs üçlük"də dəfn olunublar.
Kəlisa zənginin laylalarıyla
Üç əsr yarımdır yatır burda o.

Məzarın üstdəki qara mərmərə
Avətək yazılıb bu iki cümlə:
"Eşq olsun qəbrimi qoruyanlara,
Lənət sümüyümü tərpədənlərə".

... Diksinib qalxıram sanki yuxudan,
Baxıram yazıya, döyüb gözümü.
Bu söz Şekspirin dilidən çıxıb,
Yoxsa uydurublar onun adından?
İnsanlar şübhəyə düşsün bir az da,
Desinlər, Bekonmu, Marlomu, yoxsa...
Qovuram beynimdən bu fikirləri,
Mən bu xülyalara uya bilmərəm.

... "Hamlet" var, "Maqbet" var, "Otello" vardır.
"Riçard" var, "Romeo-Cülyetta" vardır.
Gör neçə əsrdir at səyirdir o,
Dünyanın min dilli səhnələrində.
Başını sındırsın qoy üləmalar,
Şekspirşünaslar nə deyir-desin,
Mənim hökmüm budur:
Bu əsərləri
Ya Allah yazıbdır,
Ya da Şekspir!

QARDAŞLAŞAN ŞƏHƏRLƏR

Qardaşlaşıb Koventri – Stalinrad,
Hər şəhər də dünyamızın bir başındadır.
Ölüm görmüş, qanlar görmüş iki şəhər, ad
İnsanların silinməyən yaddaşındadır.

İkisi də dağıdıldı, oldu tarmar,
Bu ellərdə daş üstündə daş da qalmadı.
Uçdu alman təyyarəsi, yağdı bombalar,
Hitler yenə: "dağıt!" dedi, aram olmadı.

Koventri hamarlandı ovuc içitək,
Dağıdıldı kəlisalar, evlər, binalar.
Dedilər ki, burda bitməz bir də gül-çiçək
Daha burda övlad üzü görməz analar!

Paulyusu əsir etdi Stalinqrad
Qoşunuyla, silahıyla, topxanasıyla.
Koventri şəhərinə qayıtdı həyat,
İnsan güldü öz eviylə, quş yuvasıyla.

Faciə bir, tale oxşar, döyüş andı bir,
Keşməkeşli yolları da birgə aşdılar.
Hərb odunda ikisi də alovlandı bir,
Sülh zamanı doğmalaşıb qardaşlaşdılar.

Bir ingilis şəhəriylə bir rus şəhəri, –
Dinlər ayrı, dillər ayrı, məslək də ayrı.
Fəqət onlar birgə gördü dərdi, kədəri,
Ona görə demək olmaz dilək də ayrı.

İkisi də bir diləkdə yaşayır indi:
Bir də ellər kirpiyiylə od götürməsin.
Müharibə dağıtmasın şəhəri, kəndi,
İnsan baxıb viranlığa köks ötürməsin.

Siz bu yolda insanlara uğur dilәyin,
Siz üzlərə dostluq adlı qapı açdırın.
Millətləri məhv olmamış qardaş eləyin,
Şəhərləri dağılmamış qardaşlaşdırın.

***

Mənim yüz əlli yaşlım,
Mənim cavan həsrətim.
Mənim gözləri yaşlım,
Əfsanəm, həqiqətim!..

Dayan, süzüm boyunu,
Dayan, bir məni dinlə.
Qardaş-qardaş oyunu
Gəl oynayaq sənlə.

Bu oyuna haçaqdır
Tamaşatək baxırıq.
Bəs nə vaxt olacaqdır
Bu oyunun axırı?

Yüz əlli il çəkərmi
Bir oyun bir tamaşa?
Belə həsrət çəkərmi,
Söylə, qardaş qardaşa?

Sandım yüz əlli ildə
Qarıyıb qocalmısan.
O görkəmdə, o dildə –
Eləcə də qalmısan.

Gözlərində kədərin
Qarışığı, rəngi var.
Səsində nəğmələrin
Cidalı var,.cəngi var.

Görüşməkçin biz gərək
Yol gələydik neçə il.
Görüşməkçin biz gərək
Yol gələydik neçə mil.

Mən gələydim Bakıdan,
Sən Təbrizdən gələydin.
Aşaydın pünhan-pünhan
Dağdan, düzdən – gələydin.

Biz sənlə gör harda –
Qlazqoda görüşdük.
Bu əcnəbi diyarda
Düşüb oda görüşdük.

(Şotlandiya, bununçün
Səni abad olasan!
Qırıb zənciri bir gün
Görüm azad olasan!)

Vətəndə – doğma yerdə
Üç addımdır aramız,
Lakin qürbət ellərdə
Məlhəm tapdı yaramız.

Lal olduq sən də, mən də,
Döndük heykələ birdən.
Özümüzə gələndə
Bu şeri söylədin sən:

"Ulduzları saya-saya
İnsan ayaq qoyur Aya.
Mənim bu taydan o taya
Əlim çatmır sənə, qardaş!"

Dayan, sən ki kimyagərsən,
Tələbəsən bu diyarda.
Necə yazdın o şeri sən,
Kimya harda, şeir harda?

Yoxsa ki, bu şer deyil,
Bir həsrətdir, gəldi dilə?
Yoxsa keçən yüz əlli il
Şair edib səni belə?

Şairləri şair edən
Görünür ki, həsrət olub.
Nəsibimiz bizim nədən,
Qardaş, elə möhnət olub?

Ölçmək üçün bu həsrəti
Tapın ölçü vahidi siz,
Bu zilləti, zəlaləti
Çətin ölçə biləsiniz.

Olçülərə çətin sığar,
Yox, o adi möhnət deyil.
Onun bircə ölçüsü var:
Yüz əlli il!
Yüz əlli il!

İSTANBULLU KAMAL

Londonun tən ortasında,
Pikadello meydanında
İstanbullu göygöz Kamal
Əyləşibdir dükanında.

O, bir funta aldığını
Bir funt əlli pensə satır.
Tiyanında atəş açan
Qovurduğu şabalıddır.

– Nə vaxt gəldin?
– Dörd sənədir.
– Niyə gəldin?
– Çörək... para...
Yüz "thank you" söyləyirəm
Mən şabalıd alanlara.

– Evlisənmi?
– Əvət, əvət,
Mən evliyəm, çocuq, qarı.
Şabalıdla saxlayıram
Bu yad eldə mən onları.

– Vətən yada düşürmü heç?
– Qovruluram şabalıdtək...
– Yurda nə vaxt qayıdarsan?
– Tanrı bilər... Görək, görək...

Türkiyədə qovurmağa
Şabalıdmı tapılmayır?
– Mən ki belə söyləmədim,
Şabalıd var... Hayır... hayır...

– Sənə yasaq etmişdilər
Orda alıb qovurmağı?
Kamal susdu.
Başa düşdü
Kinayəni, bu danlağı.

Bir cinayət eləmiştək
Gözlərini yerə dikdi,
Sonra beş-on şabalıdı
Bir kağıza alıb bükdü.

– Götür!.. – dedi.
– Ver, "Thank you!"
İngiliscə dedim mən də.
O rəng verdi, o rəng aldı
Mən bu sözü söyləyəndə.

– Yox, danış öz lisanında.
Mən bu dilə tamarzıyam.
Bənzəri var türk dilinə.
Mən məmnunam, mən razıyam...
Sən gedərsən bu gün, sabah,
Mən qalaram burda fəqət.
O göy gözlər dumanlanır,
Anlayıram nədir qürbət...

... Londonun tən ortasında,
Pikadello meydanında
Şabalıdla bir qovrulur
Kamal
həsrət tiyanında.

Uşaqlıqdan eşitmişdim adını mən:
Vəhşilərlə, qurd-quşlarla ömr eləyən
Bir uşağın nağılına bələd idim.
İlhamına, ağlına bələd idim.
Bilirdim ki, ingilis şairisən,
Vəsf edirsən seri, lordu, naziri sən.
Vətənin var: Britaniya adasında
Bir nöqtədir xəritələr miqyasında.
Öz boyundan fəqət yüz yol böyük olan
Ölkələri, torpaqları edir talan.
O Şərqə də, o Qərbə də əl atıbdır,
Bir yenilməz imperiya yaradıbdır.
Qamarlayıb Hind, Pakistan torpağını.
Ordan asıb Britaniya bayrağını.
İngiltərə kəlməbaşı düşür yada
Afrikada, Avropada, Asiyada.
Neçə ölkə İngiltərə himni çalır:
Düz Məqribdən Məşriqədək xərac alır
Sənin yurdun torpaqlardan, millətlərdən.
Deyirdilər vəsf edirsən bunları sən.
Qəsbkarlıq niyyətini vəsf edirsən,
Talançılıq şöhrətini vəsf edirsən.
Kral verən hökmləri vəsf edirsən,
Əliqanlı hakimləri vəsf edirsən,
Britaniya ordusunun həmləsini,
Lord Kellinin Hindistana gəlməsini,
Əfqanların sizə təslim olmasını,
"Cəngəlliklər qanunu"nun mənasını
Deyirdilər vəsf edirsən ürəklə sən,
Deyirdilər cahangirlik şairisən.
İnanmırdım!
Mən o zaman uşaq idim,
Şeir, sənət dünyasından uzaq idim.
Allah kimi baxırdım mən şairlərə,
Hökmü-fərman tək onlardır göyə, yerə,

Deyirdim ki, şair məddah ola bilməz,
O məddahsa, demək, allah ola bilməz.
Kiplinq, bu gün vətəninə gəlmişəm mən,
Ayrılmışam kitablardan, xəritədən.
Budur London, Vestministr abbatlığı,
Burda sənin şöhrətinin son qalığı:
Solğun məzar, xəritəyə dönmüş məzar...
Bir zamanlar sənin adın diyar-diyar
İmperiya ordusuyla bir gəzərdi...
Dinlə, Kiplinq, bu gün qızıl bir səhərdi,
London üçün nadir səhər, aydın səhər,
Bu səhərdə məncə hər şey düz görünər.
Düz görünər dünən, bu gün, şeir, sənət,
Yoxa çıxmış imperiya, olan şöhrət.
Dinlə, Kiplinq, gizləyirəm heyrətimi,
Başlayıram məzarınla söhbətimi.

KİPLİNQLƏ İKİNCİ SÖHBƏT

Bir gün dedilər ki, guya şotlandlar
Könüllü birləşib İngiltərəyə,
Bəs o vuruşmalar, içilən andlar?
Gəlin yeddi yüz il dönək geriyə.

Bəs Robert Brusun yatdığı səngər?
Azadlıq yolunda tökülən qanlar?
Bu gün Sterlinqə getsən sən əgər
Görərsən Brusun tunc heykəli var.

Bəs nəydi səngərə gətirən onu? -
Azad Şotlandiya, müstəqil vətən.
Deyirdi kimsənin qəyyumluğunu
Qoy qəbul etməsin bu çöl, bu çəmən.

Deyirdi: qonşuyuq, dost da olaq biz,
Fəqət öz evində otursun hər kəs.
Niyə qardaş kimi "hə" demədiniz
Belə qonşuluğa, qardaşlığa bəs?

Sizi məğlub etdi qəhrəman Brus,
Müstəqil yaşadı azad vətəni.
Bir gün köçüb getdi dünyadan Brus,
Keçdi əlinizə fürsət yüyəni.

Əvvəlcə Brusa heykəl qoydunuz, –
Bu da hiyləsidir qəsbkarların.
Şotland ellərini sonra soydunuz,
Tapdandı varlığı qədim diyarın.

Saraldı bu yerin yaşıl otları,
Döndü göz yaşına Klaydda sular.
Bəlkə dağ cüssəli şotland atları
O zaman kiçilib "poni" oldular!

Üstə silah çəkməz qardaş qardaşın,
Varını, yoxunu əlindən almaz,
Şotland ellərində torpağın, daşın
Kaş dili olaydı, dinəydi bir az.

Yox, yox, dinə blməz!
Daş da, torpaq da
Axı kelt dilini bilirdi burda.
Özgə dil hakimsə dildə, dodaqda
Öz dilin ölər də, unudular da.

Oyuncaq olmağı xoşlamır heç dil,
Bu bir həqiqətdir –
anlamır nadan.
Kelt dili mərdliklə dözdü neçə il,
Axırda rustək köçdü dünyadan.

Silahlı gedirdi ingilis dili,
Uzaq qitələrə qədər gedirdi.
Taxtından salaraq neçə "pis" dili
Özünü hökmdar elan edirdi.

Xalqın, qəbilənin dili o zaman
Öldü Avstraliya torpaqlarında.
İngilis dilində dindi Hindistan.
Dondu öz nəğməsi dodaqlarında.

Neçə yüz milyonluq qədim bir ölkə
Yıxıldı bir palıd əzəmətiylə.
Oldu liliputa o, müstəmləkə
Diliylə, diniylə, var-dövlətiylə.

İmperiya at çapdı hind ellərində, –
Gördülər dili də qarət dilidir.
Öldü imperiya,
Dili bu gün də
Nəhəng Hindistanda dövlət dilidir.

İşlər o torpaqda elə quruldu,
Unutdu dilini minlər, milyonlar.
İmperiya yıxıldı, sular duruldu!
Yenə ingiliscə danışır onlar.

Kiplinq, sən bunları tərənnüm etdin,
Sən uğur dilədin cahangirliyə.
Bəzən ordulara qoşulub getdin,
"Təslim ol, üstünə gəlirik!" deyə.

Sən Valter Skottun, Robert Bernsin,
Taqorun yurduna, bax, belə girdin.
Kişiydi bir ölkə xərac verməsin,
Sən onu şerinlə hədələyirdin.

Bayron həlak oldu Yunanıstanda –
Qanlı əsarətdən qalmasın bir iz.
Sən cahangirliyi ötdün cahanda,
Bayron da ingilis, sən də ingilis!

Şair vicdanıdır bəşəriyyətin,
Şeir – yer üzündə ən ali nemət.
Şair əsarəti vəsf edə – çətin!
Şeir cahangirlik nəğməsi – heyrət!

Şotland ellərini dolaşıram mən,
Behişt təravətli bir torpağı var.
"Qardaş" dediyiniz "müstəqil Vətən" –
Nə himni, nə gerbi, nə bayrağı var.

Aktyor dostumla söhbətlər

BAŞÇILAR

Bu səhnəyə gələn gündən
Neçə paltar dəyişmişəm,
Neçə dona girmişəm mən:
Neyləməli,
Budur peşəm.

Roldan-rola girsəm belə,
Dəyişmədim sifətimi.
Ağlasam da gülə-gülə,
Dəyişmədim xislətimi.

Fəhlə oldum – əl çaldılar,
Tacir oldum – yenə alqış.
Rüşvət aldım – əl çaldılar,
Ona nifrət – mənə alqış.
Cəllad oldum, vurdum boyun,
Fateh oldum – bir qəsbkar...
Ah, bu səhnə, ah, bu oyun...
Yenə mənə əl çaldılar.

Əl çaldılar, oraq alıb
Zəmiləri biçəndə də.
Əl çaldılar, əyyaş olub
Gecə-cündüz içəndə də.
Öyrənmişik alqışa biz.
Bir nadana, bir alçağa
Əl çalırıq fasiləsiz.

Bu səhnəyə gələn gündən
Min rəng-boya görmüş üzüm.